# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN PROFESSOR-MÜƏLLİM VƏ TƏLƏBƏ HEYƏTİNƏ KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ

*Sevda KƏRİMOVA*
*AMEA, Bakı, Azərbaycan*
*sevda.kerimova1@gmail.com*

***Библиотечное обслуживания преподаватель ям и студентам Азербайджанского Государственного Экономического Университета***
***Резюме:*** *В статье исследовано библиотечно-информационное обеспечение в подготовке специалистов экономико-управленческого профиляв настоящеевремя. Объектисследованияэтой статьи – Фундаментальная Библиотека Азербайджанского Государстве ного Экономического Университета который участвует в подготовке специалистов в области экономики и управления.*

***Library service to teachers and students of the Azerbaijan State University of Economics***
***Abstract:*** *The article studied library and information support in the training of economic-administrative profile. Object of research of this article - Fundamental Library of Azerbaijan State University of Economics which is involved in the training of specialists in the field of economics and management.*

***Açar sözlər:*** *universitet, təhsil, iqtisadiyyat, kitabxana, informasiya, menecment*
***Ключевые слова:*** *университет, образование, экономика, библиотека, информация, менеджмент*
***Keywords:*** *university, education, economics, library, information, management*

## 1.Giriş.

Respublikada iqtisadiyyat və menecment üzrə mütəxəssislərin hazırlanması peşəkar iqtisadi təhsilin müvafiq sahələri və mütəxəssislərin hazırlanması sahəsində beynəlxalq təcrübə, eləcə də onun keyfiyyətinin əsas meyarı olan peşəkar tələb üzrə əmək bazarının inkişafının qlobal tendensiyaları nəzərə alınmaqla həyata keçirilir. Bu proses iqtisadi və inzibati profilli ali ixtisas təhsili müəssisələrinin və qeyri-profilli ali təhsil müəssisələrinin iqtisadiyyat və idarəetmə ixtisasları sahəsində mütəxəssislərin hazırlanması ilə məşğul olan fakültələri tərəfindən reallaşdırılır.

Kitabxana - informasiya təminatı ali təhsil müəssisələrinin uğurlu təhsil fəaliyyətində, o cümlədən, iqtisadiyyat və menecment ixtisasları üzrə fəaliyyət göstərən fakultələrin tələbələrinin təhsilində mühüm rol oynayır. Kitabxana - informasiya təminatı dedikdə, istifadəçilərin informasiya ehtiyaclarının kitabxananın bütün mövcud vasitə və resursları vasitəsilə ödənilməsi başa düşülür. Universitet kitabxanaları informasiya cəmiyyətinin yeni şərtləri ilə fəaliyyət



göstərir, lakin eyni zamanda, kitabxana fondlarının formalaşdırılması, mühafizəsi və kitabxana - biblioqrafiya xidmətlərinin ənənəvi funksiyalarını həyata keçirir.

Bu baxımdan, iqtisadiyyat və menecment sahəsində mütəxəssis hazırlığını həyata keçirən ali təhsil ocaqlarının informasiya məkanında kitabxanaların rolunun və yerinin müəyyənləşdirilməsinə və əsaslandırılmasına ehtiyac vardır.

## 2.Məsələnin qoyuluşu

Məqalədə hal-hazırda iqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssislərin hazırlanması sahəsində kitabxana və informasiya təminatı məsələləri və problemləri araşdırılmışdır. Qeyd etmək lazımdır ki, məhz keçən əsrin 90-cı illərində iqtisadiyyat və menecment ixtisasları üzrə təhsil alan tələbələrə kitabxana - informasiya dəstəyi meydana gəldi. Problemin öyrənilmə dərəcəsi son on ildə iqtisadiyyat və idarəetmə sahəsində mütəxəssislərin hazırlanmasına artan maraqla müəyyən edilir. Təhsil kitabxanaları şəraitində kitabxana - informasiya təminatının əsasını tədris prosesinin iştirakçılarının informasiya tələbatlarının təmin olunması təşkil edir.

Məqalədə tədqiqat obyekti - iqtisadiyyat və menecment ixtisasları üzrə mütəxəssislərin hazırlanması ilə məşğul olan Azərbaycan Dövlət Iqtisad Universitetinin Əsaslı Kitabxanasının fəaliyyətidir.

Araşdırma mövzusu – ali təhsil müəssisəsində iqtisadiyyat və menecment profili üzrə mütəxəssislərin hazırlanmasının kitabxana-informasiya təminatıdır.

Tədqiqatın məqsədi - ali təhsil müəssisəsində iqtisadiyyat və menecment profili üzrə mütəxəssislərin hazırlanmasının kitabxana-informasiya təminatının optimallaşdırılması yollarının əsaslandırılmasıdır.

Tədqiqatın qarşısında duran məsələlər: müasir ali təhsil müəssisəsi kontekstində iqtisadiyyat və menecment sahələri üzrə mütəxəssislərin hazırlanmasının kitabxana-informasiya təminatını təhlil etmək; iqtisadiyyat və menecment ixtisasları üzrə təhsil alan tələbələrin informasiya ehtiyaclarını araşdırmaq və onların xüsusiyyətləri müəyyən etmək; bu sahədə təhsili həyata keçirən universitetin kitabxanasının iş funksiyasının həcmini müəyyənləşdirmək; təhsilə innovativ proqram və təlim metodları vasitələrilə kitabxana-informasiya dəstəyi prosesində mütəxəssis – iqtisadçıların və menecmentlərin hazırlanması sahəsində fəaliyyət göstərən universitetin kitabxanasının imkanlarını araşdırmaq.

Azərbaycan Dövlət Iqtisad Universitetinin Əsaslı Kitabxanası Universitetin aparıcı struktur bölmələrindən biri olub, təlim-tərbiyə və elmi tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir. Əsaslı Kitabxana1930-cu ildən fəaliyyət göstərir və tələbə, aspirant, bakalavr, magistr, doktorant, elmi işçi, professor-müəllim, mühəndis-texniki heyətə və universitetin digər kateqoriyadan olan oxucularının informasiya tələbatına və sorğusuna uyğun şəkildə kitabxana və məlumat-biblioqrafiya xidməti göstərir (4, s. 423).

Universitetin Əsaslı Kitabxanasında 5 şöbə fəaliyyət göstərir:
Xidmət;
Komplektləşdirmə və kitabişləmə;

Kataloq;
Biblioqrafiya;
Oxu zalı.

Xidmət şöbəsi oxuculara monoqrafiya, dərslik, dərs vəsaitləri, metodik göstərişlər və digər çap məhsulları ilə zəngin fondu hesabına operativ xidmət göstərir. Həmçinin jurnal, qəzet, dissertasiya, avtoreferat, və başqa informasiya resursları ilə də oxucuların xidmətindədir.

Kitabxanaya daxil olan bütün ədəbiyyatı Komplektləşdirmə və kitabişləmə şöbəsi qəbul edir. Yeni ədəbiyyat təsvir olunur və texniki cəhətdən işlənilir, filiallar üzrə qruplaşdırılır və paylanılır.

Kataloq şöbəsi kitabxanaya daxil olan bütün növ ədəbiyyatın biblioqrafik təsvirini, redaktəsini təşkil edir. İşlənilmiş bütün ədəbiyyat ənənəvi qaydada kataloqa daxil edilir. Azərbaycan, rus və ingilis dillərində təsvir olunmuş ədəbiyyat Əsas, Əlifba, Sistemli kataloqda öz əksini tapır.

Biblioqrafiya şöbəsi Əsaslı Kitabxananın ən zəruri və vacib şöbələrindən biri olaraq, kitabxananın yarandığı illərdən öz fəaliyyətinə başlamışdır. Şöbə öz tələbatçılarına kitabxanın əsas kitab fondu, hədiyyə verilmiş kitablar fondu, dövrü mətbuat – qəzet və jurnal fondu vasitəsilə operativ və keyfiyyətli xidmət göstərmiş və bugün də təhsil sistemində gedən islahatlara uyğun olaraq yenidənqurma işlərində fəal iştirak edir. Belə ki, biblioqrafik xidmətin müasir təşkili ali təhsil müəssisələrində təhsilin yüksəldilməsində, elmi-pedaqoji heyətin, xüsusilə, tələbələrin sorğularının ödənilməsində böyük rol oynayır.

Əsaslı Kitabxana ilə yanaşı 1 saylı tədris binasında müasir tələblərə cavab verən geniş oxu zalı, 2, 3 və 4 saylı tədris binasında zəngin fondu olan filial kitabxanaları və oxu zalları fəaliyyət göstərir.

ADİU-nun Əsaslı Kitabxanasında “Azərbaycan dilində kitab fondu”, “Rus dilində kitab fondu”, “İngilis dilində kitab fondu” və s. başlıqlar altında sistemli və əlifba kataloqu tərtib edilmişdir. Bütövlükdə fond hər üç dildə İRBİS-64 proqramı vasitəsilə işlənilərək oxucuların istifadəsinə verilmişdir. 2013-2014-cü tədris ili ərzində Əsaslı kitabxanaya 6508 nəfər üzv yazılmışdır ki, onlardan da 5070 nəfəri tələbə, 1438 nəfəri isə müəllim və işçi heyətidir. 2014-cü il ərzində kitabxananın fonduna 3984 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunlardan 2000 nüsxəyə yaxın iqtisadiyyata dair ədəbiyyatdır. 2014-cü ilin sonunda kitabxananın fondunda 271662 nüsxə ədəbiyyat olmuşdur ki, bunların 118000-dən çox hissəsini iqtisadiyyatın müxtəlif sahələrinə dair ədəbiyyatlar təşkil etmişdir. 2014-cü tədris ilində tələbə və müəllim heyətinə 182216 nüsxə kitab verilmişdir ki, bunların da 163321 nüsxəsini iqtisadi ədəbiyyat təşkil etmişdir. Bütövlükdə il ərzində kitabxanadan 455540 nəfər müəllim və tələbə heyətinin nümayəndələri istifadə etmişdir (3, s. 3).

2013-cü ilin əvvəlində kitabxanın fondu 263653 nüsxə olmuş, il ərzində 4025 nüsxə ədəbiyyat alınmışdır. Alınan ədəbiyyatın 3001 nüsxəsi iqtisadiyyata dair kitablar olmuşdur. Bütövlükdə alınan kitabların 3481 nüsxəsi Azərbaycan, 538 nüsxəsi rus, 6 nüsxəsi digər xarici dillərdə olmuşdur. Kitabxananın fondunda 1319 jurnal, 4039 qəzet, 210 dissertasiya, 3561 avtoreferat mövcud olmuşdur (2, s. 4).



2012-ci ilin əvvəlində Əsaslı Kitabxananın fondunda 259749 nüsxə ədəbiyyat olmuş, il ərzində 4771 nüsxə yeni kitablar alınmışdır ki, bunların 4318 nüsxəsi tədris, yəni iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən kitablar olmuşdur (1, s. 3).

2011-ci ildə 3690 nüsxə (2221 nüsxəsi iqtisadiyyata dair olmaqla), 2010-cu ildə 2158 nüsxə (2087 nüsxəsi iqtisadiyyata dair olmaqla), 2009-cu ildə 6368 nüsxə (5064 nüsxəsi iqtisadiyyata dair olmaqla), 2008-ci ildə 3803 nüsxə (2647 nüsxəsi iqtisadiyyata dair olmaqla) yeni ədəbiyyat alınmışdır. Göründüyü kimi, 2009-cu ildə iqtisadiyyatın müxtəlif sahələrinə dair alınan kitabların sayı digər illərdən daha çoxdur.

2015-ci ilin ilk rübü ərzində Əsaslı Kitabxanaya 467 nüsxə (353 nüsxəsi iqtisadiyyata dair olmaqla), 2-ci rübü ərzində isə 568 nüsxə (523 nüsxəsi iqtisadiyyata dair olmaqla) yeni ədəbiyyat daxil olmuşdur. Hazırda kitabxananın fondu 267678 nüsxə ədəbiyyatı əhatə edir. Bunların 28245 nüsxəsi elmi istiqamətli, 215877 nüsxəsi tədris, yəni iqtisadiyyatın müxtəlif sahələrinə dair ədəbiyyat, 16758 nüsxəsi bədii, 6798 nüsxəsi isə xarici ədəbiyyatlardır.

Son 10 il ərzində kitabxana fondunu tədqiq edən zaman məlum olur ki, 2005-ci ildən 2015-ci ilə qədər fonda 30554 nüsxə ədəbiyyat daxil olmuşdur ki, bunun da 27000-dən çoxu iqtisadiyyata dair ədəbiyyatlardır.

Bir qədər əvvələ nəzər salsaq, 1990-cı ildən bu günə qədər kitabxana fonduna 65156 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunların 6304 nüsxəsi 1 saylı tədris binasının Oxu zalında, 36764 nüsxəsi isə fondunda, 13756 nüsxəsi 2 saylı tədris binasının filial kitabxansında, 5786 nüsxəsi 3 saylı tədris binasının filial kitabxansında, 2546 nüsxəsi isə 4 saylı tədris binasının filial kitabxansındayerləşdirilmişdir.

Azərbaycan Dövlət İqtisad Univeristetinin professor-müəllim və tələbə heyətinə kitabxana xidmətini müasir səviyyədə təşkil edilməsi məqsədilə elektron kitabxana yaradılmışdır. ***Library.asue.edu.az*** domenində yaradılan elektron kitabxana istifadəyə verildiyi zaman bazaya 5 dildə 2573 adda kitab yerləşdirilmişdi ki, onların 402 ədədi yüklənə bilən “PDF” formatında idi. Hal-hazırda elektron kitabxanada kitablar, dərslik, dərs vəsaitləri və monoqrafiyalar, mühazirələr, dissertasiya fondu, fənnlər üzrə işçi tədris proqramı, video-dərsliklər, avtoreferatlar və axtarış sistemləri bölmələri fəaliyyət göstərir. Kitablar bölməsində 2662 adda kitabın elektron versiyası yerləşdirilmişdir. Burada həmçinin, yeni nəşr olunan kitablar da öz əksini tapmaqdadır.

Dərslik, dərs vəsaitləri və monoqrafiyalar şöbəsi tərcümə olunmuş dərsliklər, Beynəlxalq İqtisadi Münasibətlər, Biznes inzibatçılığı, Əmtəəşünaslıq, İnformatika və idarəetmə, Kommersiya, Maliyyə, Texnologiya və dizayn, Türk dünyası və işlətmə, Uçot-iqtisad, İqtisadiyyat və sənaye bölmələrini əhatə edir. Qeyd etmək lazımdır ki, universitetin müəllimləri tərəfindən 58 adda kitab xarici dillərdən Azərbaycan dilinə tərcümə edilərək elektron formada kitabxananın saytında yerləşdirilmişdir.

Qəzetlər və jurnallar şöbəsində Respublikada nəşr olunan 16 adda qəzet və jurnalın veb səhifələrinə keçidlər istifadəyə verilmişdir. Mühazirələr şöbəsində Azərbaycan və rus dillərində, Dissertasiya fondu şöbəsində isə 2014/2015-ci tədris ilində Magistraturanın qiyabi şöbəsində müdafiə olunmuş magistr dissertasiyalarının mətnləri elektron formada öz əksini tapmışdır.

Axtarış sistemləri şöbəsində Rusiya, Almaniya, Fransa, Avstraliya və Böyük Britaniyanın Milli Kitabxanasına, ABŞ-ın Konqres Kitabxanasına və Altavista, Academic Info, Bing, Digital Librarian: a librarian's choice of the best of the WEB, Find Articles, Google Books, Google Scholar, Google/Azerbaijan, Librarians' Index to the Internet, Microsoft Academic Search, Oalster, Wikia Search və Yahoo kimi axtarış sistemləri və daimi istifadəyə verilən məlumat bazalarına keçidlər ***http://library.unec.edu.az/*** saytının istifadəçilərinin axtarışlarını asanlaşdırmaq məqsədilə onlara təqdim olunur.

Fənlər üzrə işçi tədris proqramı şöbəsində Beynəlxalq iqtisadi münasibətlər, İqtisadi nəzəriyyə, Maliyyə, Bank işi, Vergi və vergiqoyma, Beynəlxalq ticarət və gömrük işi, Mühasibat uçotu, İqtisadi təhlil və audit, Statistika, İqtisadiyyatın tənzimlənməsi, Müəssisənin iqtisadiyyatı, Qiymət və qiymətləndirmə, Əməyin iqtisadiyyatı və təşkili, Menecment, Biznesin idarə edilməsi, Ticarət, Sosial sferanın iqtisadiyyatı və idarəedilməsi, Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarəedilməsi, Marketinq, İnformatika, Ekonometrika, İnformasiya iqtisadiyyatı və texnologiyaları, Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı, Ərzaq malları əmtəəşünaslığı və ekspertizası, Qeyri-ərzaq malları əmtəəşünaslığı və ekspertizası, Qida məhsullarının texnologiyası, Standartlaşdırma və sertifikasiya, Dizayn, Texnoloji maşınlar və sahə avadanlıqları və s. mövzular üzrə sillabuslarWinRARarchiver formasında kitabxananın elektron saytında yerləşdirilmişdir.

Video-dərsliklər şöbəsində Azərbaycan dili, İngilis dili, Qida məhsulları texnologiyası, Sertifikatlaşdırma və sertifikasiya, Politologiya, Rus dili, Maliyyə, Mühasibat uçotu, İnformasiya iqtisadiyyatı bölmələrində hər sahəyə uygun elektron dərslər yerləşdirilmişdir ki, tələbələr hətta universitetə gəlmədən də bu video dərsliklər vasitəsilə məlumatlana bilərlər. Onu da qeyd etmək lazımdır ki, Beynəlxalq ticarət və gömrük işi, Ətraf mühitin mühafizəsi bölmələrində hələlik elektron dərsliklər yerləşdirilməmişdir. Lakin tezliklə bu bölmələrdə məlumatların yerləşdirilərək tələbələrin istifadəsinə verilməsi nəzərdə tutulur.

Avtoreferatlar şöbəsində Azərbaycan və rus müəllifləri bölmələrinin mövcudluğuna baxmayaraq, yalnız xarici müəlliflər bölməsi istifadəyə verilmişdir ki, burada da rus müəllifləri bölməsində **Scholar.ru** veb səhifəsinə keçid yerləşdirilmişdir. Veb səhifədə elm sahələri üzrə alimlərin dissertasiya və avtoreferatlarını əldə etmək mümkündür.

Saytın xidmətlər bölümündə tələbələrin istifadəsini optimallaşdıran 4 xidmət yaradılıb. Bunlar "kitab istəmə", "rəy bildirmə", kitabxana üzrə virtual tur, "elektron kitabxanaçı" xidmətləridir. Elektron kitabxanaçı müvafiq şəxs tərəfindən idarə olunur və iş günü ərzində onlayn olaraq elektron kitabxanadan istifadə edən oxucuları müşahidə edərək onların sorgularını operativ şəkildə



cavablandırır. Şifahi biblioqrafik sorğu ilə il ərzində cəmi 30-35 nəfər müraciət etməsinə baxmayaraq, onlayn xidmət vasitəsilə gün ərzində 100-130 nəfər oxucu sorğusu cavablandırılır. Buradan da belə nəticəyə gəlmək olar ki, müasir oxucular kitabxanadan onlayn istifadəyə və xidmətə daha çox üstünlük verirlər. "Kitab istəmə" xidmətinin özəlliklərindən biri qeyri-iş vaxtlarında da istifadəçilərin istəklərini qeydə ala bilməsidir. Rəy bildirmə hissəsində istifadəçilər sayt və kitab barəsində öz rəylərini qeyd edə bilərlər.

ADİU-nun Əsaslı kitabxanasının oxu zalının əsas vəzifəsi oxuculara məlumatın vaxtında çatdırılmasını təmin etməkdir. Məqsəd oxucuların sorğularını tam ödəyən effektli xidmətdir. Oxu zalında təşkil edilmiş elektron kataloq kitabxanaya daxil olan sənədləri özündə əks etdirməyə imkan verir. Kitablar tipinə, növünə, mövzusuna, xronoloji və digər xüsusiyyətlərinə görə kompyuterə daxil edilmişdir. Yeni kitablar oxu zalına daxil olduqda onların siyahısı dərhal tərtib olunaraq oxucuların diqqətinə çatdırılır. Həmçinin yeni kitabların sərgisi təşkil olunmaqla oxuculara təbliğ olunur.

Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq, oxucuların sərbəst surətdə informasiya almaq hüququnu təmin etmək, onların kitablara, dövri nəşrlərə, kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəmək məqsədilə kitabxana işinin avtomatlaşdırılması, oxu zalında olan bütün fondun müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadə, zalda olan bütün fondun həmin sistemlərdə əks olunması təşkil edilmişdir.

Oxu zalının fondunda olan kitablar İRBİS proqramına uyğun yığılmış, hal-hazırda "Azərbaycan dilində kitab fondu", "Rus dilində kitab fondu", "İngilis dilində kitab fondu", "Heydər Əliyev fondu" və s. başlıqlar altında həm sistemli, həm də əlifba kataloqu tərtib edilərək oxucuların istifadəsinə verilmişdir. Tərtib edilmiş bu kataloqlar azərbaycan, rus və ingilis dillərində kompyuterdəyığılmışdır. Fondda həmçinin türk, yapon, alman dillərində və universitet nəzdində yerləşən "Gələcək naminə" təşkilatı tərəfindən hədiyyə edilmiş və kompyuterdən istifadəyə aid zəngin kitablar var. Oxucular kitab fondunun güzgüsü sayılan bu yeni müasir kataloqlardan lazımi ədəbiyyatı istədikləri dildə özləri sərbəst tapa bilirlər.

Oxu zalında həmçinin qəzet və jurnalların daimi sərgisi vardır ki, burada da ən yeni nüsxələr oxucuların ixtiyarına verilir. Dövri mətbuatın son illərdə nəşr olunan bütün nüsxələri oxu zalında saxlanılır. Ümumiyyətlə, oxu zalında 20-yə yaxın azərbaycan və rus dillərində qəzetlər, ingilis dilində FINANCIAL TIMES qəzeti, 22 adda azərbaycan və rus dillərində, 5 adda ingilis dilində elmi jurnal, o cümlədən THE ECONOMIST jurnalı oxucuların istifadəsindədir. Oxu zalında 700-ə yaxın ədəbiyyatın elektron resursları toplanaraq ADİU-nun ***http://www.aseu.az*** saytında yerləşdirilməsi üçün hazırlanmışdır. Həmçinin həmin elektron resursların əlifba və sistemli kataloqu da yaradılmışdır ki, bu da oxucuların hər hansı bir sahəyə dair ədəbiyyat axtarışında operativlik və dəqiqlik yaradır. Oxu zalına daxil olan jurnalların mövzu üzrə kartotekası yaradılmışdır. Mövzu kartotekası Azərbaycan və rus dillərində 2013-cü il dekabrın sonuna qədər

olan dövrü əhatə etməklə kitab şəklində çap olunaraq oxucuların istifadəsinə verilmişdir. Kartotekada maliyyə, bank işi, kredit, mühasibatlıq, makroiqtisadiyyat, insan resursları, əməyin iqtisadiyyatı, investisiya, idarəetmə, marketinq, kadr təminatı, sahibkarlıq, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrinə aid 49 adda Azərbaycan, rus dilində isə 1276 adda məqalə öz əksini tapmışdır. Qəzetlər 3 il, jurnallar isə 5 il, daha aktual olanlar isə 5 ildən artıq müddətdə fondda saxlanılır.

Oxu zalına müraciət edən oxucular əsasən elektron kitabxanadan istifadə edirlər. Elektron kitabxananın fondunda iqtisadiyyatın maliyyə, biznes, ticarət, menecment, mühasibatlıq və digər sahələri üzrə ümumilikdə 565 adda olmaqla, Azərbaycan dilində 450, rus dilində 43, ingilis dilində isə 72 adda kitabın elektron versiyası toplanmışdır. Elektron kitabxanaya oxu zalına qəbul olunan kitabların elektron versiyaları ardıcıl olaraq elektron fonda yüklənilir. Elektron kitabxanada oxu zalında bütün dillərdə olan kitabların və dövrü mətbuatın (jurnallarda olan məqalələr) kataloqu, mühazirələr yerləşdirilmişdir. Bu kataloqlar kitab (sistemli və əlifba) şəklində nəşr olunub oxucuların istifadəsinə verilmişdir. İmtahan sessiyası dövründə oxu zalından gün ərzində 130-150 nəfər, adi günlərdə isə 50-60 nəfər istifadə edir. Oxu zalı müasir tələblərə cavab verən kompyuter avadanlıqları ilə təchiz edilmiş, avtomatlaşdırılmışdır. Universitet nəzdində fəaliyyət göstərən PDF proqramı ilə işləyən virtual kitabxana yalnız ADİU tələbələrinə xidmət göstərir. Burada kitabların ancaq elektron variantı vardır. Kitabxanada hər tələbənin öz parolu var və bütün oxucular kompyuterdə qeydiyyatdan keçmişdir.

Oxu zalında ümumilikdə iqtisadiyyat, maliyyə, biznes, bank işi, qiymətli kağızlar, pul tədavülü, dünya iqtisadiyyatı, menecment, sahibkarlıq, valyuta, investisiya və s. üzrə 2379 adda olmaqla 5919 nüsxə ədəbiyyat mövcuddur ki, bunların da 1796 adda olmaqla 5014 nüsxəsi Azərbaycan dilində, 333 adda olmaqla 696 nüsxəsi rus dilində və 250 adda olmaqla 309 nüsxəsi türk, ingilis və digər dillərdədir. Kitablar "İRBİS-64" proqramında yığılmışdır.

"Heydər Əliyev fondu", " EvropeanTobacco", "Nikoyl", "Gələcək naminə" şirkətləri tərəfindən oxu zalına çox qiymətli, müxtəlif elm sahələrinə aid 1500 adda rus və xarici dildə ədəbiyyatlar hədiyyə edilmişdir. Bu ədəbiyyatlar 2009-cu ildən başlayaraq professor Ş.Hacıyevin redaktəsi ilə ADİU-nun professor və müəllimləri tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq oxucuların istifadəsinə verilmişdir. Yeni daxil olan kitabları təqdim etmək məqsədilə oxu zalında vaxtaşırı biblioqrafik icmallar keçirilir.

**Məsələnin həlli yolları**: Ali təhsil ocağının kitabxanası müasir informasiya cəmiyyəti şəraitində fəaliyyət göstərməklə yanaşı, kitabxana fondlarının yaradılması və mühafizəsi, kitabxana-biblioqrafiya xidməti və digər ənənəvi xidmət funksiyalarını da yerinə yetirir. Bu baxımdan, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssislərin hazırlanması ilə məşğul olan universitetlərin informasiya məkanında kitabxananın rolunu və yerini əsaslandırmağa ehtiyac vardır. Son 30 ildə iqtisadiyyat və idarəetmə ixtisasları üzrə təhsil sahəsində olduğu kimi, bu ixtisaslara kitabxana-informasiya dəstəyi sahəsində də yeniliklər meydana gəlmişdir.



Nəzərdən keçirilən məsələnin öyrənilməsi son illərdə iqtisadiyyat və menecment ixtisasları üzrə mütəxəssislərin hazırlanmasına marağın artması ilə təyin olunur. Mövcud mənbələr problemin vacibliyini əks etdirməklə yanaşı, eyni zamanda, onun ayrı-ayrı aspektlərinin hələ də araşdırılmadığını göstərir. Universitet Kitabxanası şəraitində kitabxana - informasiya təminatının optimallaşdırılmasının əsasını tədris prosesinin iştirakçılarının informasiya tələbatlarının ödənilməsi təşkil edir.

Tədqiqatın nəticələri belə fikrə gəlməyə imkan verir ki, iqtisadiyyat və menecment ixtisasları üzrə təhsil alan tələbələrin informasiya tələbatları spesifik xüsusiyyətlərə malikdir. Belə ki, onlar biznesin müxtəlif sahələrinə dair informasiya axtarışı zamanı İnternet resursları və qeyri-ənənəvi informasiya daşıyıcıları ilə (CD, FD, DVD) işləməyə daha çox üstünlük verirlər. Bütün bunlar tələbələrin informasiya tələbatlarının ödənilməsinin aşağıdakı meyarlardan asılı olmasına əsaslanmaq fikrinə gətirib çıxarır:

tələb olunan məlumatı ənənəvi üsullarla əldə etmək imkanı (müəllim və ya kitabxanaçı ilə məsləhətləşmə, kataloqda müstəqil axtarış və s.);

tələb olunan məlumatı elektron vasitələrlə əldə etmək imkanı (Internet, məlumat bazaları və s.);

tələbələrin informasiya axtarışı səviyyəsinin idarə edilməsi (informasiyaya dair sorğunun düzgün ifadə olunması, lazım olan ədəbiyyatın keçidlər vasitəsilə əldə edilməsi, kitabxananın məlumat-biblioqrafiya aparatından istifadə bacarığı və s.)

İqtisadiyyat və menecment ixtisasları üzrə təhsildə baş verən dəyişikliklər informasiya məkanında ali təhsil müəssisələri kitabxanalarının tələbələrin, yəni, gələcək iqtisadçıların kitabxana – informasiya tələbatlarının ödənilməsində mərkəzi mövqe tutduğunu əsaslandırmağa imkan verir. İqtisadi və idarəetmə profili üzrə mütəxəssis hazırlığının kitabxana informasiya təminatının işlənib hazırlanmış modeli sosial qaydada səriştəli mütəxəssis hazırlığında tədris prosesinin davamlılığını əks etdirir. Bu tədris prosesinin xüsusiyyətlərini və Universitet Kitabxanasının aşağıdakı vəzifələrin icrasına yönəlmiş fəaliyyətini əks etdirir:

- İqtisadiyyat və menecment üzrə mütəxəssislərin təhsilinin innovativ forma və metodlarına adekvat və operativ dəstək;
- Biznesə dair informasiyanın prioritet qaydada yayılması;
- Kitabxana informasiya resurslarının öyrənilməsinin mütləq qaydada tədris prosesinə daxil edilməsi.

İqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssis hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin kitabxanalarının iş təcrübəsinin öyrənilməsi nəticəsində məlum olmuşdur ki, bu kitabxanalar biznes sahəsi üzrə informasiyanın toplanması və yayılması ilə məşğuldurlar. Kitabxana fondlarının təhlili göstərir ki, burada iqtisadiyyat və hüquq elmləri üzrə materialların 70%-i saxlanılmaqdadır. Beləliklə, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssis hazırlığı ilə məşğul

olan universitetlərin kitabxanalarının ənənəvi funksiyalarına biznes funksiyaları da əlavə olunur (5, s. 44).

Təhsil prosesinə yeni proqram və metodların fəal tətbiq edilməsi ilə bərabər onun adekvat və operativ kitabxana – informasiya təminatı problemi də meydana gəlmişdir. Bu məqsədlə, kitabxanalar öz fondlarını qeyri - ənənəvi daşıyıcılarda olan materiallarla kompleksləşdirirlər və mövcud resursları elektron formaya köçürürlər. Eyni zamanda, İnternet resurslarından istifadə etməklə öz məlumat bazalarını yaradırlar.

Müəyyən edilmişdir ki, təhsilin innovativ proqram və metodları ilə iqtisadiyyat ixtisası üzrə təhsil alan tələbələrin kitabxana – informasiya təminatı arasında müasir təhsil prosesinə ənənəvi və qeyri - ənənəvi dəstək vasitələrinə uyğun olan qarşılıqlı əlaqə mövcuddur. Bununla bərabər, iqtisadiyyat və menecment üzrə mütəxəssis hazırlığı sahəsində tələbələrin əldə etdikləri informasiya ilə həddindən artıq yüklənməsi kimi bəzi çatışmazlıqlar da vardır. Bu problemin həlli olaraq təhsil müəssisələrinin fəaliyyətinın ayrılmaz hissəsi kimi tələbələrin informasiya hazırlığına böyük əhəmiyyət verilməlidir. Təhsil və lazımı informasiyanın əldə edilməsi bacarıqlarına yiyələnmə kitabxana istifadəçiləri ilə fərdi iş və əlbəttə, "Kitabxana - biblioqrafiya biliklərinin əsasları", "Tələbənin müstəqil informasiya axtarışı" və digər bu kimi kurslar çərçivəsində həyata keçirilə bilər. Tələbələrin informasiya əldə edilməsi bacarıqlarına yiyələnməsi və onların qarşılarında duran problemlərin həlli üçün digər səmərəli üsul “Tələbə nəşriyyat qrupu”nun yaradılması ola bilərdi.

Tədqiqat nəticəsində ali təhsil müəssisəsində iqtisadi və inzibati profil üzrə mütəxəssis hazırlığına kitabxana – informasiya dəstəyinin həyata keçirilməsi yolları və üsulları müəyyən edilmişdir:

Tədris prosesinin iştirakçılarının informasiya tələbatlarının öyrənilməsi;

Biznes sahəsi üzrə fəaliyyət göstərən kitabxanaların iş təcrübəsinin təhlili, onların iqtisadi və idarəetmə ixtisasları üzrə mütəxəssis hazırlığı ilə məşğul olan universitetlərin kitabxanalarının iş prosesinə tətbiq edilməsi;

İqtisadiyyat və menecment sahələri üzrə mütəxəssislərin tədrisi ilə məşğul olan Universitet kitabxanalarında biznesə dair məlumatların yayılması üçün xüsusi şöbələrin yaradılması;

iqtisadiyyat elmi üzrə təhsil alan tələbələrin tədris prosesinin yeni proqram və metodlarına operativ kitabxana – informasiya dəstəyinin həyata keçirilməsi;

Universitetin tədris prosesinə kitabxana informasiya resurslarının öyrənilməsinin mütləq olaraq daxill edilməsi;

İqtisadiyyat və menecment ixtisasları üzrə təhsil alan tələbələrlə işləmək üçün kitabxana-informasiya mütəxəssislərinin hazırlığının həyata keçirilməsi.

Problemin həlli yolları tələbə və professor-müəllim heyətinə kitabxana-informasiya dəstəyinin həyata keçirilməsinin, tədris prosesi iştirakçılarının informasiya ehtiyaclarının sistemli öyrənilməsinin və tələbələrin – gələcək iqtisadçıların informasiya axtarışına hazırlanmasının yeni üsullarının yaradılmasını tələb edir.



**Nəticə:**

Iqtisadiyyat və idarəetmə ixtisasları üzrə mütəxəssis hazırlığı ixtisas profilli ali təhsil müəssisələri və qeyri-ixtisas profilli universitetlərin ayrıca fakultələri vasitəsilə həyata keçirilir. Bu ali təhsil müəssisələri müxtəlif statuslara malikdirlər. Ixtisasın tələblərinin təhlili göstərir ki, iqtisadiyyat və idarəetmə üzrə mütəxəssislərin bütün səviyyələrdə fəaliyyəti informasiya ilə iş müşayiət olunur. Müasir texniki vasitələrdən istifadə etməklə informasiya ilə işləmək üsullarına yiyələnmək universitet məzunlarının əsas ixtisas sətiştələrinin olmasını sübut edir.

İxtisas sahiblərinin psixoloji keyfiyyəti onların öz iş proseslərində istifadə üçün lazım olan informasiyanın əldə edilməsinə yönəldilmiş səylərinin məcmusuna, bu informasiyanın fərdi əmək fəaliyyətlərində istifadəsinə və bununla da, informasiya davranışlarına təsir edir.

Iqtisadi – inzibati ixtisas üzrə təhsil alan tələbələrin informasiya tələbatları peşə hazırlığına dair yeni metodların tədris prosesində tətbiqi ilə formalaşa bilər. Tədris müddətinin ilk iki il ərzində tələbələr müvəqqəti yaradıcı kollektiv və tədqiqat qruplarında peşə fəaliyyəti ilə məşğul olmağa cəlb oluna bilərlər. Tədrisin 3-cü ilində iqtisadiyyat sahəsində mütəxəssislərin hazırlanması ilə məşğul olan ali təhsil ocaqlarında peşəkar fəaliyyət vacib şərt kimi qarşıya qoyulmalıdır. Bu ixtisaslar üzrə təhsil alan tələbələrin informasiya tələbatlarının təcrübi istiqaməti isə iqtisadi – inzibati sahələrdə çalışan pedaqoqların tədris prosesinə cəlb olunması vasitəsilə formalaşdırıla bilər.

Məqalə hazırlanarkən Azərbaycan Dövlət Iqtisad Universitetinin tələbələrinin informasiya tələbatları araşdırılaraq tədris prosesində professor-müəllim və tələbə heyətinə kitabxana – informasiya dəstəyinin səviyyəsi öyrənilmişdir. Bu məqsədlə, Əsaslı Kitabxanasının fəaliyyəti illər üzrə nəzərdən keçirilmiş, kitabxananın şöbələrinin iş fəaliyyəti öyrənilmiş, direktoru və əməkdaşları ilə söhbətlər aparılmışdır. Eyni zamanda elektron kitabxana haqqında məlumatlar toplanaraq 20 nəfər tələbə arasında sorğu keçirilmişdir.

**Ədəbiyyat**

1. Azərbaycan Dövlət Iqtisad Universitetinin Əsasli Kitabxanasinin 2012-ci il üčün hesabati. - 2013. - s. 3.
2. Azərbaycan Dövlət Iqtisad Universitetinin Əsasli Kitabxanasinin 2013-cü il üčün hesabati. - 2014. - s. 4.
3. Azərbaycan Dövlət Iqtisad Universitetinin Əsasli Kitabxanasinin 2014-cü il üčün hesabati. - 2015. - s. 3.
4. Xələfov, A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə. - Bakı: «BakıUniversiteti» nəşriyyatı, 2007.- 552 s.
5. Амвросьева, О.А. Библиотечно информационноеобеспечениепрофессиональногообразованияТекст. / О.А. Амвросьева // Университетская кн. - 1998. - № 6. - С. 44 - 45.